IrsN_2007.qxd 09.02.2007 15:44 Page 54

A-PDF Split DEMO : Purchase from www.A-PDF.com to remove the watermark



## BOYAQÇI KÜPÜ DEYİL Kİ!

Keçmişdə indiki kimi əsaslı, mexanikləşdirilmiş boyaqxanalar yox idi. Boyaqxanalar kiçik dükanlarda, bəziləri isə açıq meydanlarda - bazarlarda yerləşirdi. Boyanmalı olan ipi və ya parçanı yerə basdırılmış boyaq küpünün içərisinə salıb bir qədər saxladıqdan sonra kənara çıxarır və bütün bu işi müştərinin yanında görürdülər. Rəng tünd olduqda və ya ipi daha açıq rəngdə boyamaq lazım gəldikdə isə ipi küpün içərisində daha az saxlayırdılar.

Belə peşələr içərisində ən az vaxt aparan və bir anda icra edilən boyaqçılıq çox asan hesab edilirdi.

*Buna görə çox vaxt aparan çətin işi təcili görmək tələb olunduqda "boyaqçı küpü deyil ki, salan kimi çıxardım" - deyirlər.*

## BAŞINA KÜL TÖKMƏK

Qədim zamanlarda bir sıra xalqlar, o cümlədən Şərq xalqları bu və ya digər hadisə nəticəsində son dərəcə məyus və qəmgin olduqlarını bildirmək, böyük bədbəxtliyə düçar olduqlarını ifadə etmək məqsədilə başlarına kül tökərdilər.Məsələn, Homer "İlliada" əsərində ən yaxşı dostu olan Patrokl həlak olduqdan sonra son dərəcə qəmginliyə qapılmış Axillesin başına kül tökdüyündən bəhs edir.

*Hazırda başa kül tökmək adətinin özü aradan çıxıb yox olmuşsa da, bir bədbəxtlik üz verdiyini bildirmək məqsədilə "onun başına kül oldu", "filankəsin başını küllədilər", yaxud "başıma kül (oldu)" deyirlər. Bəzən bir adama bədbəxtlik arzuladıqda da "kül başına" ifadəsindən istifadə olunur.*

## BAŞQALARININ ZURNASI İLƏ OYNAMAQ

Bu ifadənin çox qədim tarixi vardır. Rəvayətə görə İran şahı Kir (eramızdan əvvəl 558-529) Midiyanı zəbt etdikdən sonra, yalnız müəyyən şərtlərlə ona tabe olmağa razılıq vermiş yunanlara müraciətlə belə bir lətifə söyləmişdir: çoban dənizin kənarında dayanıb tütək çalır və balıqların bu səsə sahələ çıxacağını gözləyirdi. Lakin bu işin bir nəticə vermədiyini görərək, o, torunu dənizə atır, çoxlu balıq tutur; sudan kənara çıxarırkən balıqların çapaladığını görüb demişdir: "Mənim tütəyimin səsinə oynamadınız, indi isə öz-özünüzə oynayırsınız!"

*Sözsüz ki, o vaxtdan bəri həmin məsəlin mənası da dəyişmişdir. Hazırda bu ifadədən iradəsizlik göstərən, öz şəxsi əqidəsi olmayan, başqalarının sözü ilə oturub-duran, bəzən də belə hərəkət etməyə məcbur olan adamlar haqqında danışarkən istifadə edirlər.*

***"Rəvayətli ifadələr", Bakı-1961***